***M.S.Qaraxanova, R.S.Hacıyeva***
*Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutu, pediatriya, mamalıq və operativ ginekologiya kafedraları*

# AZƏRBAYCANDA QADINLARIN ÖZ SAĞLAMLIQINA MÜNASİBƏTİ BARƏDƏ

Dünyaya sağlam körpənin gəlməsi üçün qadınlar ilk növbədə öz sağlamlıqlarını qorumalıdırlar. Bunun üçün isə onların bu haqda lazımi məlumatı və sosial təminatı kifayət qədər olmalıdır. (3,4.)

Bununla yanaşı əhalinin məlumatlandırılmasının təbliği uzun illər davam etməsinə baxmayaraq, yenə də buna ehtiyac hiss olunur. Belə ki, hamiləliyin, doğuşun ağırlaşmasının və xəstə uşaqların doğulmasının əsas səbəblərindən biri qadınların lazımi səviyyədə həkim nəzarətində olmamasıdır. Doğum evlərinə daxil olmuş qadınlar çox vaxt «normal qan təzyiqinizi bilirsinizmi?» kimi sadə suallara cavab verə bilmirlər.

İlk baxışdan sadə görünən belə suallar hamilə qadınların mühafizəsində və dünyaya gələcək körpələrin sağlamlığında önəmli yer oynayır.(1,2)

Təəssüflər olsun ki, hələ də hamilə vaxtı həkim nəzarəti altında olmayan qadınlara təsadüf olunur.

Gündəlik təcrübəmizdə qarşılaşdığımız problemlərdən biri də qızların öz sağlamlıqlarına qarşı olan laqeyidliyidir

Bununla bağlı Azərbaycan Qızıl Aypara Cəmiyyətinin xəstəliklərin profilaktikasına dair təlimatlandırılmış könüllü sağlamlıq işçiləri vasitəsilə respublikanın müxtəlif regionlarında əhali arasında (qaçqın və məjburi köçkünlər məskünlaşan çadır şəhərjikləri daxil olmaqla) müntəzəm olaraq, səhiyyə maarif işini və sağlamlıqla bağlı sorğular aparılır.

Bunu araşdırmaq məqsədilə, təhsilini və yaşayış yerini qeyd etməklə, 16 - 30 yaş arasında qadın əhalisi arasında Azərbaycan Qızıl Aypara əmiyyətilə birgə sorğu keçirilmişdir. Qabaqcadan hazırlanmış xüsusi blanklarda bizi maraqlandıran suallar cavablandırılmış və təhlil etilmişdir. Sorğuların təhlili sorğuda iştirak edən 1000 nəfərdən 790 nəfərinin özünü sağlam hesab etdiklərini göstərmişdir. «Profilaktik

məqsədlə müayinədən keçirsinizmi?» sualına 660 nəfər ancaq xəstə olanda, 220 nəfər müayinədən keçmədiyini, 80 nəfər ildə 1 dəfə, 40 nəfər isə ildə 2 dəfə müayinədən keçdiyini qeyd etmişdir (Cədvəl 1).

Cədvəl 1.

Qadın əhalisinin profilaktik məqsədilə müainədən keçirilməsi barədə məlumat səviyyəsi
(Hər 100 nəfərə görə)

| Göstəricilər | Angaq xəstə olanda | Müayinədən keçməmişəm | İldə bir dəfə müayinədən keçirəm | İldə iki dəfə müayinədən keçirəm |
|---|---|---|---|---|
| Əhalinin sayı | 66% | 22% | 8% | 4% |

Göründüyü kimi qadınların əksəriyyəti (66 %) xəstəliyə tutulandan sonra həkimə müraciət edirlər. Təbii ki, bu da xəstəliklərin vaxtında qarşısının alınmasına imkan vermir və xəstənin müxtəlif çətinliklərlə (iqdisadi və mənəvi) üzləşməsinə gətirib çıxarır.

Vaxtında müayinə olunmamağın səbəbini araşdıranda isə, təəssüf hissi ilə qeyd etmək lazımdır ki, respondentlərin çoxu - 528 nəfər-vaxtın; 150 nəfər- maaddi imkanın olmadığını, 213 nəfər-müayinədən keçməyin lazım olduğunu bilmədiklərini qeyd etmişlər. Respondentlərin əksər hissəsi isə bu suala (109 nəfər) ümumiyyətlə cavab verməmişdirlər. (Cədvəl 2).

Cədvəl 2

Qadın əhalisinin vaxtında müayinə olmamağın səbəbi barədə məlumat səviyyəsi
(Hər 100 nəfərə görə)

| Göstəricilər | Müayinədən keçməyimin lazım olduğunu bilmirdim | Maddi imkanım yoxdur | Vaxtım yoxdur | Cavab verməyənlər |
|---|---|---|---|---|
| Əhalinin sayı | 21% | 15% | 53% | 10% |

Göründüyü kimi gənc qızlar və qadınların əksəriyyəti (53 %) həkimə vaxtında müayinə edilmək üçün vaxtın olmamasını qeyd etmişdir, buda bir daha onların öz sağlamlıqların laqeyid yanaşmasını sübut edir.

Əldə etdiyimiz bu cavablar qadın əhalisi arasında «Sağlamlıq proqramlarının» təbliğinə, tələbələr arasında profilaktik məqsədlə aparılan tibbi müayinələrin pulsuz olmasına ehtiyac olduğunu göstərir.

Hamiləlik və doğuş fəsadları gənc analarda nisbətən az təsadüf edilir (3). Ona görə də sorğu zamanı qadınlarımızın 18 - 28 yaş arasında ailə həyatı qurmalarına üstünlük verilməsi sevindirici haldır.





Yuxarıda qeyd etdiyimiz kimi sorğuda iştirak edənlərin əksəriyyəti, ancaq xəstə olanda müayinə olunmalarına və bunun səbəbinin əsasən vaxtlarının olmaması ilə əlaqələndirilmələrinə baxmayaraq «uşağın sağlam doğulması üçün hansı amil daha vacibdir?» sualına qənaətbəxş cavab vermişlər. Belə ki, həm qızların ailə qurmamışdan əvvəl sağlamlıqlarına nəzarət etmələrinə 760 nəfər (76%), həm də hamilə qadının həkim nəzarətində olmasına 893 nəfər (89%) üstünlük vermişlər (Cədvəl 3).

Cədvəl 3.

Qadın əhalisinin uşağın sağlam doğulması üçün vacib amillər barədə məlumat səviyyəsi
(Hər 100 nəfərə görə)

| Göstəricilər | Hamilə qadının həkim nəzarəti altında olması | Qızların ailə qurmamışdan əvvəl sağlamlığına nəzarəti |
|---|---|---|
| Əhalinin sayı | 89% | 76% |

Aparılan bu sorğunun təhlili göstərir ki, soruşulanların çoxusunun ali təhsilli və yaşayış yerinin Bakı şəhəri olmasına baxmayaraq, qadınlarımız sağlamlığın qorunması yollarını bilmələrini qeyd etsələr də, buna riayət etmirlər. Bu da bir daha qadın əhalisinin öz sağlamlığına laqeyid yanaşmasını sübut edir.

Beləliklə, bunu aradan qaldırmaq məqsədilə, qadın əhalisi arasında sağlamlığın qorunması üçün müvafiq məlumatların təbliğinin genişləndirilməsi zəruridir.

РЕЗЮМЕ

## ОТНОШЕНИЕ ЖЕНСКОГО НАСЕЛЕНИЯ К СВОЕМУ ЗДОРОВЬЮ

М.С.Караханова, Р.С.Гаджиева
Азербайджанский Государственный Институт
усовершенствования врачей им. А.Алиева,
кафедра педиатрии, кафедра акушерства и оперативной гинекологии

Профилактическое обследование девушек способствует раннему выявлению различных заболеваний, которые приводят к тяжелому течению беременности и родов, а также рождению детей с родовой травмой. С целью изучения степени информированности о состоянии своего здоровья, совместно с волонтерами-работниками здравоохранения Национального Общества Красный Полумесяц Азербайджана, был проведен опрос среди 1000 девушек в возрасте 16-30 лет города Баку и некоторых регионов Республики. Анализ данного опроса показал, что 66% девушек обращаются к врачу только тогда, когда имеет место заболевание, что показывает недостаточность информированности их о необходимости своевременного (раннего) проведения профилактического обследования.

Следовательно, проведение санитарно-просветительной работы среди девушек детородного возраста с целью профилактики различных заболеваний, возникающих в

период беременности является одним из главных условий для рождения здоровых детей.

## ƏDƏBİYYAT


1. Елизарова М.Г., Михайлев Е.В. и др. Варианты адаптационных реакций у новорожденных группы высокого риска по внутриутробному инфицированию.. Журнал Акушерство и гинекология. 2005. № 4 стр.19-23.
2. Hacıyeva R.S. Puerperal infeksiyaların yayılma səbəbləri və profilaktika yolları. Aftoreferat . Bakı 1998 il.
3. Фролова О.Г., Токова З.З. Основные показатели деятельности акушерско-гинекологической службы и репродуктивного здоровья. Журнал Акушерство и гинекология. 2005. № 1 стр.3-6.
4. Хамошина М.Б. Репродуктивное поведение и контрацептивный выбор девушек-подростков Приморского края. Журнал Акушерство и гинекология. 2005., № 2 стр.46-49.